


# Ulu Öndər haqqında xatirələr

**Ulu öndər Heydər Əliyev elə bir tarixi şəxsiyyətdir ki, onun böyüklüyünü hər dəqiqə, hər an, hiss edir və düşünürsən ki, O, səninlə birlikdə xalqımızın aydın sabahlarına doğru addımlayır.**

Ulu öndərin Azərbaycan xalqına xidmətlərini saymaqla bitməz. Bu xatirə yazımda onun təhsil sahəsinə göstərdiyi diqqətdən, o cümlədən ölkəyə rəhbərliyinin birinci mərhələsində azərbaycanlı gənclərin keçmiş sovet respublikalarının aparıcı universitetlərində təhsil almaq üçün göndərilməsindən danışmaq istəyirəm.

Ulu öndər Heydər Əliyev respublikamıza rəhbər təyin olunduğu elə ilk vaxtlardan Mərkəzi hökumətin razılığı ilə Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Kiyev, Voronej, Dnepropetrovsk və digər şəhərlərdə fəaliyyət göstərən nüfuzlu institutlara azərbaycanlı gənclərin müsabiqədənkənar qaydada qəbul olunmalarına və dövrün tələblərinə uyğun ixtisaslar üzrə təhsil almalarına nail oldu. O xoşbəxt anları yaşayan gənclərdən biri də mən idim.

Qəbul imtahanlarını uğurla verib Moskva Geodeziya Aerofotoplanalma və Kartoqrafiya Mühəndisləri institutunun (indiki Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universiteti) tələbəsi adını qazandım. Qəbul komissiyası imtahanlarda müvəffəqiyyət qazanmış tələbələrə bildirdi ki, avqust ayının 29-da Respublika Sarayında Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin də iştirakı ilə birinci kursa qəbul olunmuş azərbaycanlı gənclərin yolasalınma tədbiri keçiriləcəkdir.

Həmin gün ulu öndər bizi xoş sözlərlə salamladı və hamımıza təhsil alacağımız respublikalarda, şəhərlərdə özümüzü layaqətli aparmağı, Azərbaycan xalqını layiqli şəkildə təmsil etməyimizi arzuladı. Yüksək təhsilə yiyələnməyimiz, rus dilini mükəmməl öyrənməyimiz üçün öyüd-nəsihətlər verdi. "Siz getdiyiniz şəhərlərdə özünüzü kimsəsiz hiss etməyin, sizin arxanızda Azərbaycan xalqı, Azərbaycan dövləti durur, mən dururam", - söylədi. O vaxtlar ulu öndərin bu sözləri mənəvi gücümüzü birə-beş artırdı.

Onu da qeyd edim ki, biz - tələbələr təhsil aldığımız illərdə ulu öndərin tapşırığı ilə Azərbaycan Respublikasının Moskva şəhərində yerləşən nümayəndəliyi, xüsusilə də nümayəndəliyin təhsil üzrə əməkdaşları tərəfindən yüksək diqqət və qayğı ilə əhatə olunmuşduq. Heydər Əliyevin şəxsən özü də respublikadan kənarda təhsil alan tələbələrlə daim maraqlanır və imkan yarananda onlarla görüşlər keçirirdi.

Ulu öndərin Moskva şəhərində oxuyan azərbaycanlı tələbə-gənclərlə belə bir görüşü 1979-cu ildə M.Qorki adına Moskva bədii-akademik teatrının sarayında keçirildi.

Bizi Moskva şəhərində yerləşən Azərbaycan nümayəndəliyi tərəfindən həmin görüşə dəvət etdilər. Görüşə, həmçinin təhsil aldığımız müəssisələrin rektorları, prorektorları dəvət olunmuşdular. Söz ulu öndər Heydər Əliyevə veriləndə salon sükuta qərq oldu və onun alovlu çıxışı hamını valeh etdi. "Elmin sirlərinə yaxşı yiyələnin, rus dilini mükəmməl öyrənin. Siz burada Azərbaycanın elçilərisiniz, çalışın xalqımızı yüksək səviyyədə təmsil edin".

Bu görüşün məzmun və məqsədini ulu öndər öz uzaqgörənliyi ilə necə düşünmüşdüsə, elə də oldu: görüşdən sonra bizə oxuduğumuz institutların rəhbərlikləri tərəfindən diqqət daha da artırıldı. Sən demə, bu görüşün məqsədi həm də azərbaycanlı tələbələri Moskva ali məktəb rəhbərlərinə tanıtmaq, bizlərə diqqətin daha da artırılmasını diplomatik gedişlə onların nəzərinə çatdırmaqdan ibarət imiş.

Yeri gəlmişkən onu da qeyd etmək istəyirəm ki, ötən əsrin 70-ci illərində, orada "qafqazdanam", - deyəndə, əsasən gürcü və yaxud erməni başa düşürdülər. Çünki bu millətlərin nümayəndələri Moskva şəhərinə çoxdan ayaq açmış və özlərini tanıda bilmişdilər. Lakin zaman keçdikcə "Azərbaycan", "azərbaycanlı" sözləri teztez işlədilməyə başladı. Mən hesab edirəm ki, bu istiqamətdə də müsbət dəyişikliyin baş verməsi yenə də ulu öndərin adı ilə bağlı idi. Məhz onun şəxsində Azərbaycanı, azərbaycanlıları tanımağa başlamışdılar. Xüsusilə də Heydər Əliyevin artıq Moskvada Siyasi Büroya üzv seçilməsi bu prosesi daha da sürətləndirdi.

1998-ci il avqust ayının 31-də indiki Heydər Əliyev Sarayında ulu öndərin istəyi ilə 1969-1988-ci illərdə respublikadan kənarda təhsil almış tələbə-gənclərlə görüş keçirilirdi. Ulu öndər Saraya daxil olanda hamımız ayağa qalxıb onu sürəkli alqışlarla salamladıq. Həmin görüşdə aspirantura və doktorantura təhsilimizi davam etdirmək üçün təhsil almış olduğumuz universitetlərdə müvafiq şəraitin yaradılması barədə xahişimizin ulu öndərə çatdırmaq üçün həmkarlarımızdan bizi çıxışa yazmaqlarını xahiş etmişdik.

Çıxışlardan sonra Heydər Əliyev söylədi ki, respublikadan kənar universitet və institutlara təhsil almağa göndərilən tələbələrin siyahılarını özündə əks etdirən kitabçaları o, öz arxivində saxlayır. Ulu öndər dedi: "Siz Azərbaycan dövlətinin, xalqının ən qiymətli kapitalısınız. Sizləri Azərbaycanın dövlət və hökumət idarəetmə strukturlarına, institutlarına işə, qulluğa dəvət edirəm. Sizin potensialınızdan tam və səmərəli istifadə olunmalıdır". Təhsil nazirliyinin nümayəndələrinə daha yüksək hazırlıq keçmiş mütəxəssislərin siyahısını tərtib edib Azərbaycan Respublikasının Prezident Aparatına, Nazirlər Kabinetinə təqdim etməyi tapşırdı.

Ulu öndər, həmçinin sovetlər birliyi süquta uğradıqdan sonra sovet respublikalarının təhsil nazirlikləri arasında əlaqələrin zəifləməsi və bu səbəbdən elmi əməkdaşlıq sahəsində meydana çıxmış çətinliklərin aradan qaldırılması üçün tədbirlərin görülməsinə dair Təhsil Nazirliyinə müvafiq tapşırıqlar verdi.

Ulu öndər xalqını hədsiz sevən və onun gələcəyini daima düşünən fenomen insan idi. O, sanki əvvəlcədən görür və hiss edirdi ki, çox keçməz Azərbaycan müstəqil, öz taleyinin sahibi olan bir ölkə olacaqdır. Ona görə də hərbi sahədə, respublikamızda hazırlığı aparılmayan ixtisaslar üzrə keçmiş sovet respublikalarında yerləşən nüfuzlu təhsil müəssisələrində mütəxəssislərin hazırlanması işinə xüsusi diqqət yetirirdi. Onu da qeyd etmək istəyirəm ki, SSRİ dövründə respublikamızda ərazimizin geodezik-kartoqrafik baxımdan təminatı digər respublikalardan çağırılan, əsasən də slavyan mənşəli mütəxəssislər tərəfindən həyata keçirilirdi və o cümlədən, xəritələrin tərtibatı zamanı coğrafi obyektlərin adlarının yazılışında böyük qüsurlara yol verilirdi: onlar adları necə eşidirdilərsə, xəritələrdə elə də yazırdılar. Bu, o dövrlərdə geodeziya-kartoqrafiya sahəsində baş vermiş çoxsaylı qüsurlardan sadəcə biridir. Ona görə də, ulu öndər geodeziya-kartoqrafiya sahəsinə diqqət göstərir, hər il müsabiqədənkənar Moskva Dövlət Geodeziya və Kartoqrafiya Universitetinə 4-5 nəfər azərbaycanlı gənci oxumağa göndərirdi. Bu gün ulu öndərin yetişdirdiyi həmin mütəxəssislər müstəqil dövlətimizin sərhədlərinin delimitasiya və demarkasiyasını, ölkə ərazisinin müasir geodeziya-kartoqrafiya təminatını həyata keçirirlər.

Heydər Əliyevin siyasi-iqtisadi kursu, o cümlədən təhsillə bağlı siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev, eləcə də ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Bu gün Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş "Neft potensialını intellekt kapitalına çevirək" devizi altında təhsildə geniş islahatlar aparılır, Heydər Əliyev Fondu tərəfindən yeni məktəb binaları tikilir, köhnələri əsaslı təmir edilir.

Məlum olduğu kimi, sovetlər dövründə respublikamız üçün nadir ixtisaslar üzrə mütəxəssis hazırlığı işini SSRİ dövlətinin hüdudları daxilində yerləşən nüfuzlu universitet və institutlarda aparmaq mümkün idi və bu zəruri işi ulu öndər Heydər Əliyev həyata keçirdi. Bu gün ölkəmiz müstəqillik əldə etdiyindən imkanlar daha da genişlənmiş və Prezident İlham Əliyevin təşəbbüsü ilə xarici ölkələrin nüfuzlu universitetlərində azərbaycanlı gənclərin təhsil alması üçün xüsusi Dövlət proqramları qəbul edilmiş və uğurla həyata keçirilir.

**Məqsəd QOCAMANOV,**
**Bakı Dövlət Universitetinin Geodeziya və kartoqrafiya kafedrasının müdiri, texnika elmləri doktoru, professor, respublikanın Əməkdar müəllimi.**